

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 79 (21.740)

27 aprel 2017-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 26-da Səudiyyə Ərəbistanı Krallığının energetika, sənaye və təbii sərvətlər naziri Xalid Əbdüləziz Əl Falihin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Ölkələrimiz arasında ikitərəfli münasibətlərin çox yüksək səviyyədə olduğunu deyən Prezident İlham Əliyev əlaqələrimizin getdikcə daha da möhkəmləndiyini vurğulayıb, mövcud əməkdaşlığımızın davam etdirilməsinin vacibliyini qeyd edib.

Xalid Əbdüləziz Əl Falih ölkələrimiz və xalqlarımız arasında əlaqələrin dərin və qədim köklərə malik olduğunu, mədəni əməkdaşlığımızın uzun əsrlərdən bəri davam etdiyini vurğulayıb, bu əməkdaşlığımızın Prezident İlham Əliyevin rəhbərliyi altında daha da genişləndirildiyini qeyd edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 26-da SOCAR-ın Bibiheybət mədəninin ərazisində dünyada sənaye üsulu ilə qazılmış ilk quyunun bərpadan sonrakı vəziyyəti ilə tanış olub.

Dövlətimizin başçısı burada quraşdırılan xüsusi interaktiv köşkə baxıb.

## İxtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi yüksəkixtisaslı kadr hazırlığına böyük töhfə verir



*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixli "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncamına uyğun olaraq, muxtar respublikanın Rabitə və Yeni Texnologiyalar Nazirliyində Naxçıvan Dövlət Texniki Kollecinin tələbələrinin iştirakı ilə tədbir keçirilib.*

Tədbiri giriş sözü ilə açan rabitə və yeni texnologiyalar naziri Rövşən Məmmədov bildirib ki, ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi yüksəkixtisaslı kadr hazırlığına böyük töhfə verir. Bu baxımdan müvafiq ixtisaslar üzrə təhsil alan tələbələrin nazirliyin struktur qurumlarında təcrübə keçməsi təqdirəlayiq haldır. Əminliklə demək olar ki, Naxçıvan Dövlət Texniki Kollecinin tələbələrinin əksəriyyəti gələcəkdə muxtar respublikanın bank qurumlarında fəaliyyət göstərməklə bərabər, poçt əməliyyatçısı kimi effektiv iş nümayiş etdirə biləcəklər.

Görüşdə "Naxçıvanpoçt" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru İlqar Sadiqov, Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi Poçt rabitəsi şöbəsinin mütəxəssisi Hüsniyyə Rəcəbovanın çıxışları olub. Çıxışlarda qeyd edilib ki, təcrübə müddətində nazirliyin mütəxəssisləri tərəfindən Naxçıvan Dövlət Texniki Kollecinin Bank işi ixtisası üzrə təhsil alan tələbələrinə dərslər keçilib. Dərslərdə mərkəzi terminallar haqda məlumat verilib, həmin terminal vasitəsilə qaz, elektrik, su istifadə haqlarının, telefon abunə borclarının ödənişi, abunəçilərin borclarının hesablanması, adların, ünvanların korreksiyası, yeni abonent yaradılması və terminaldan müxtəlif hesabatların çıxarılması öyrədilib. Bundan başqa, Colvir sistemi ilə işləmək qaydası, pul köçürmələrinin qəbulu, ödənişi, axtarış aparılması, teleqramların qəbulu və göndərilməsi, bağlamaların qeydiyyatı, müxtəlif hesabatların çıxarılması qaydaları üçün dərslər keçilib. Smartkartların yüklənməsi və hesabatların çıxarılması da öyrədilib. Bütün bunlar tədris otağındakı kompüterlərin "Naxçıvanpoçt" Məhdud Məsuliyyətli Cəmiyyətinin şəbəkəsinə qoşulması vasitəsilə əyani olaraq həyata keçirilib.

Naxçıvan Dövlət Texniki Kollecinin direktoru Asəf Ruşanov tələbələrə yaradılan şəraitə görə minnətdarlığını bildirərək qeyd edib ki, əvvəllər Bank işi ixtisasında təhsil alan tələbələrin təcrübə keçməsi üçün yalnız Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikasındakı İdarəsinə müraciət edilirdi. Ancaq kollec üçün yeni binanın istifadəyə verilməsindən sonra muxtar respublika rəhbərinin tapşırığı əsasında poçt əməliyyatları üzrə kadrların yetişdirilməsinə də diqqət artırılıb. Sevindirici haldır ki, bu ixtisas üzrə təhsilini başa vuran tələbələr təkcə bank qurumlarında deyil, "Naxçıvanpoçt" Məhdud Məsuliyyətli Cəmiyyətinin struktur bölmələrində də fəaliyyət göstərə biləcəklər.

Kollecin tələbələrindən Nargül Abbaszadə və Həbibə Baxşəliyeva çıxış edərək təcrübə müddətində göstərilən köməyə görə mütəxəssislərə minnətdarlıqlarını bildiriblər.

Tədbirə rabitə və yeni texnologiyalar naziri Rövşən Məmmədov yekun vurub.

## Təhsil Nazirliyində tələbələrlə görüş keçirilib



*Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyində ümumtəhsil məktəblərində pedaqoji təcrübə keçən tələbələrlə görüş keçirilib.*

Görüşdə Naxçıvan Muxtar Respublikasının təhsil naziri Məmməd Qəribov çıxış edərək təhsil quruculuğu sahəsində görülən işlərdən, orta təhsilin inkişaf səviyyəsindən, bu sahəyə göstərilən dövlət qayğısından bəhs edib, ali və orta ixtisas təhsili müəssisələrinin birgə fəaliyyətinin tədrisin və təhsilin yüksək səviyyədə qurulmasında mühüm rolundan danışıb.

Bu görüşün Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixli "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncamına uyğun olaraq keçirildiyini bildirən təhsil naziri vurğulayıb ki, təkcə cari ilin birinci rübündə müxtəlif bölgələrimizdə 5 yeni məktəb binasının istifadəyə verilməsi, təhsil müəssisələrinin ən müasir avadanlıqlarla təchiz edilməsi, müəllim əməyinə yüksək qiymət verilməsi göstərilən dövlət qayğısının bariz nümunəsidir.

Məmməd Qəribov bildirib ki, pedaqoji profilli hamiliyə götürülmüş ixtisaslarda təhsil alan tələbələrlə görüşlərin keçirilməsi böyük əhəmiyyətə malikdir. O, müasir təhsillə bağlı yanaşmaların formalaşmasında müəllim hazırlığının vacibliyindən söz açaraq deyib ki, bu gün muxtar respublikada ali və orta ixtisas təhsili müəssisələrində təhsil alanların yüksək intellektual səviyyəyə və praktik iş qabiliyyətinə yiyələnmələri daim diqqətdə saxlanılır. Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi muxtar respublikada yerləşən ali və orta ixtisas təhsili müəssisələri ilə daim əlaqələrini genişləndirərək pedaqoji profilli ixtisaslarda təhsil alan tələbələrin təcrübələrinin tam orta məktəblərdə keçirilməsi prosesində yaxından iştirak edir.

Pedaqoji təcrübə müddətində tələbələrin tam orta məktəblərdə pedaqoji prosesi əyani şəkildə öyrənmələri, bilik və peşə vərdişlərinə yiyələnmələri üçün hər cür şərait yaradıldığını, tədbir iştirakçılarının diqqətinə çatdıran Məmməd Qəribov qeyd edib ki, təcrübə müddətində müasir təhsil sistemində pedaqoji yeniliklərin, fənn kurikulumlarının və yeni təlim texnologiyalarının tətbiqi ilə aparılan tədris prosesinin üstünlüklərinin tələbələrə aşılanması təmin edilir, ümumtəhsil məktəblərində tətbiq olunan yeni dərsliklər, dərs vəsaitləri və elektron tədris vasitələrindən səmərəli istifadə yolları təcrübi şəkildə öyrədilir. Bundan başqa, pedaqoji təcrübə zamanı məktəblilərə müasir yanaşma formaları, müəllim-şagird-valideyn əlaqələrinin yaradılması, məktəb rəhbərliyinin metodları, şagirdlərlə psixoloji işin aparılması yolları, ümumilikdə, təhsil sahəsində mövcud olan bütün yeniliklər çatdırılır.

Sonra təhsil prosesində müxtəlif sahələri əhatə edən mövzular ətrafında çıxışlar olub, tələbələr təşkil edilən kitab sərgisinə, müəllim və kurikulum guşələrinə baxıblar.

✍ Səbuhi HÜSEYNOV

## Turizm müşavirəsində qarşıya qoyulan vəzifələr icra olunur

***2016-cı il martın 18-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Naxçıvan Muxtar Respublikasında turizmin inkişaf etdirilməsi" ilə bağlı müşavirə keçirilmişdir. Müşavirədə qarşıya qoyulan tapşırıqların icrası məqsədilə aidiyyəti təşkilatlar tərəfindən birgə tədbirlər planı hazırlanmışdır. Tədbirlər planının icrası 2017-ci ilin birinci rübündə də davam etdirilmiş, bir sıra tədbirlər həyata keçirilmişdir.***

Bu dövrdə Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin nəzdində fəaliyyət göstərən "Tətbiqi sənət və rəsm əsərləri, tarix və mədəniyyətimizlə bağlı müxtəlif növ çap məhsullarının satış mərkəzi"ndə 2441 manatlıq 239 əl işi satılmışdır. "Naxçıvan Biznes Mərkəzi" MMC tərəfindən isə sərgi-satış məqsədilə 76 adda 2578 manat dəyərində əl işi və sənət əsəri qəbul edilmiş, 51 adda 913,5 manat dəyərində əl işlərinin satışı həyata keçirilmişdir.

Müşavirədə qarşıya qoyulan tapşırıqlara uyğun olaraq Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının təşkilatçılığı ilə gənclərin Xatirə Muzeyinə və Naxçıvan Dövlət Tarix Muzeyinə gəzintiləri təşkil olunmuşdur. Mədəniyyət və Turizm Nazirliyi tərəfindən isə "Naxçıvan Muxtar Respublikasında dini və sağlamlıq turizminin inkişaf imkanları" mövzusunda konfrans keçirilmişdir.

Bu il martın 7-dən 13-dək İran İslam Respublikasının Qərbi Azərbaycan Vilayətinin Urmiya şəhərində Naxçıvan Muxtar Respublikasında istehsal olunan ərzaq məhsulları və əl işlərinin sərgi-satışı təşkil olunmuşdur. Tədbirdə 62 adda əl işlərinin sərgi-satışı həyata keçirilmişdir.

Turizm potensialını tanıdan əsas vasitələrdən biri də sosial şəbəkələrdir. Naxçıvan Turizm İnformasiya Mərkəzi tərəfindən muxtar respublikanın turizm potensialını əks etdirən videoçarxların internetdə yerləşdirilməsi təmin edilmiş və mərkəzin Youtube kanalına 120-dən çox məlumat – videoçarx daxil edilmiş, facebook sosial şəbəkəsindəki səhifəsində 326 paylaşım olmuşdur. Mərkəzə gəlmiş 400-dən çox xarici ölkə vətəndaşının müraciəti cavablandırılmış, saytda turist qəbul edən 4 kənd evi haqqında məlumat yerləşdirilmişdir. Bu dövrdə 30-dan çox xarici ölkəyə, Azərbaycanda fəaliyyət göstərən 170 turizm şirkətinə və bölgələrdə yerləşən 13 turizm informasiya mərkəzinə muxtar respublikanın turizm imkanları ilə bağlı məlumatlar göndərilmişdir.

Sərhəd-keçid məntəqələrində, eləcə də Naxçıvan Beynəlxalq Hava Limanında quraşdırılan elektron məlumat lövhələrində turistləri maraqlandıran gömrük məlumatları, Naxçıvan Muxtar Respublikasının görməli yerlərinin fotoslaydları yerləşdirilmişdir. Həmçinin bütün gömrük orqanlarındakı infoköşklərdə muxtar respublikanın muzeyləri, tarixi abidələri və turizm obyektləri ilə bağlı videoçarxların nümayişi həyata keçirilməkdədir.

Hesabat dövründə Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi və Naxçıvan Muxtar Respublikasının Dövlət Miqrasiya Xidməti tərəfindən muxtar respublikaya gələn əcnəbilərin Azərbaycanın, o cümlədən muxtar respublikanın mədəniyyəti, incəsənəti, mətbəxi və turizm imkanları haqqında məlumatlandırılması, muzeylərə və tarixi yerlərə ekskursiyaların təşkil edilməsi istiqamətində bir sıra işlər görülmüşdür. Belə ki, Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətində muxtar respublikada yaşayan və işləyən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin iştirakı ilə "Naxçıvanın memarlıq abidələri", "Milli qəhrəmanlarımız və şəhidlərimiz", "Naxçıvan xanlığı" mövzularında 3 maarifləndirici tədbir keçirilmiş, bir sıra muzeylərə, tarixi abidələrə ekskursiyalar təşkil edilmişdir.

Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi, Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsi və Naxçıvan Turizm İnformasiya Mərkəzi tərəfindən hesabat dövründə muxtar respublikanın turizm potensialını əks etdirən videoçarxların hazırlanması və onların internetdə yerləşdirilməsinin təmin edilməsi məqsədilə bir sıra işlər görülmüşdür. Belə ki, ötən dövrdə bu mövzuda 11 veriliş, 1 film, muxtar respublikanın turizm potensialını əks etdirən 6 videoçarx efirə təqdim edilmiş, "Şərq qapısı" qəzetində turizmin təbliği ilə bağlı 7 məqalə dərc edilmişdir.

Görülən işlərin nəticəsidir ki, 2017-ci ilin birinci rübündə muxtar respublikaya 98,8 min turist gəlmişdir ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 5,1 faiz çoxdur.

*Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin mətbuat xidməti*

## Muxtar respublikada yaradılan əlverişli biznes mühiti nəticəsində sahibkarlıq inkişaf edir, ixracın həcmi hər il daha da artır

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə aprelin 17-də Yevlaxda qeyri-neft ixracatçılarının respublika müşavirəsində dövlətimizin başçısı vurğulayıb ki, son illər ərzində Azərbaycanda ciddi islahatlar aparılıb, regionların sosial-iqtisadi inkişafı dövlət proqramları qəbul edilib, sahibkarlara dövlət tərəfindən böyük dəstək göstərilib və göstərilir. Beləliklə, biz qeyri-neft ixracının artırılmasına nail ola bilmişik.***



Azərbaycan dövlətinin iqtisadi inkişaf siyasəti Naxçıvan Muxtar Respublikasında da uğurla reallaşdırılır. Sürətli sosial-iqtisadi yüksəliş fonunda muxtar respublikada əhalinin artan tələbatına uyğun olaraq bütün sahələrdə dinamik inkişafın ardıcıl xarakter alması üçün məqsədyönlü tədbirlər həyata keçirilir.

Ölkəmizdə olduğu kimi, qədim diyarda da regionların sosial-iqtisadi inkişafına dair 2004-2008-ci və 2009-2013-cü illəri əhatə edən iki Dövlət Proqramı yerinə yetirilib. Hazırda isə 2014-2018-ci illəri əhatə edən sayca üçüncü Dövlət Proqramı uğurla icra olunur. Ötən illər ərzində muxtar respublikanın inkişafını təmin etmək məqsədilə icrası uğurla başa çatan dövlət proqramları və hazırda icrası davam etdirilən "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", həmçinin "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı" ümumi inkişafa təkan verib, yeni istehsal və xidmət sahələri fəaliyyətə başlayıb.

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsindən verilən məlumata görə, yerli istehsal sahələrinin inkişafının nəticəsidir ki, bu gün muxtar respublikada 367 növdə məhsul istehsal olunur. Bu məhsulların 121 növü ərzaq, 246 növü qeyri-ərzaq məhsullarıdır. 107-si ərzaq, 237-si qeyri-ərzaq olmaqla, 344 növdə məhsula olan tələbat tamamilə daxili imkanlar hesabına ödənilir. Muxtar respublikada ümumi inkişafın əsas göstəricisi olan ümumi daxili məhsul istehsalının həcmi 1995-ci illə müqayisədə 59,1 dəfə artaraq 2016-cı ildə 2 milyard 582 milyon manatdan çox olub. Bu dövr ərzində sənaye məhsulunun həcmi 103,2 dəfə, kənd təsərrüfatı məhsulunun həcmi 11,1 dəfə artıb. Yerli istehsalın artması daxili bazarda məhsul bolluğu yaratmaqla bərabər, muxtar respublikanın ixrac potensialını gücləndirib, idxalın həcminin isə azalmasına səbəb olub.

Xarici ticarət dövriyyəsi ümumi inkişafı əks etdirən mühüm makroiqtisadi göstəricilərdən biri olmaqla yanaşı, eyni zamanda ixracın və idxalın cəmidir. Komitədən verilən məlumatda qeyd olunur ki, 2009-cu ildən muxtar respublikanın xarici ticarət dövriyyəsində müsbət saldo qeydə alınıb, ixracın həcmi idxalı üstələyib. Həmin dövrdə xarici ticarət dövriyyəsinin 51 faizini ixrac, 49 faizini isə idxal təşkil edib.

Naxçıvanın müalicəvi mineral suları, təbii duzu, çay, emal olunmuş ət və meyvə məhsulları, qazlı və spirtli içkiləri, meyvə şirələri, yüksəkkeyfiyyətli tikinti məhsulları, o cümlədən Naxçıvan sementi, gips, daş məmulatları və digər məhsullar ixrac potensialının artırılmasında mühüm rol oynayıb. Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin məlumatında o da bildirilir ki, 2016-cı ildə muxtar respublikada xarici ticarət dövriyyəsinin həcmi artıb və 463244,8 min ABŞ dolları təşkil edib. Bir il öncəyə nisbətən ixracın həcmi 1,1 faiz artaraq 419120,8 min ABŞ dolları, idxalın həcmi isə 54,9 faiz azalaraq 44124 min ABŞ dolları səviyyəsində olub. 2016-cı ildə xarici ticarət dövriyyəsinin 9,5 faizini idxal, 90,5 faizini isə ixrac təşkil edib. 1995-ci illə müqayisədə 2016-cı ildə ixracın həcminin 216,4 dəfə artması muxtar respublikada iqtisadi sahədə qazanılmış uğurların əsas göstəricilərindən biridir.

Son 8 ildə xarici ticarət dövriyyəsində qeydə alınmış uğurlar bu gün də davam etməkdədir. Belə ki, cari ilin ilk rübü ərzində muxtar respublikada fəaliyyət göstərən müəssisə və təşkilatlar, fiziki şəxslər tərəfindən aparılan ticarət əməliyyatları nəticəsində 56334 min ABŞ dolları həcmində xarici ticarət dövriyyəsi yaranıb. Xarici ticarət dövriyyəsinin 53260 min ABŞ dollarını, yaxud 94,5 faizini ixrac, 3074 min ABŞ dollarını, yaxud 5,5 faizini idxal təşkil edir. Bir il öncəyə nisbətən ixracın həcmi 1,1 faiz artıb, idxalın həcmi 73,3 faiz azalıb.

Yerli istehsalın inkişafı daxili bazarın qorunmasında, xaricə valyuta axınının qarşısının alınmasında və idxaldan asılılığın aradan qaldırılmasında mühüm rol oynayır. Buna görə də muxtar respublikada yerli xammala əsaslanan, əhali tələbatının dolğun şəkildə ödənilməsinə imkan verən istehsal müəssisələrinin yaradılması istiqamətində bu gün də ardıcıl işlər görülür. Daxili bazarın tələbatının ödənilməsi ilə yanaşı, xarici bazarlara çıxış imkanları da araşdırılır. İxracyönümlü məhsul istehsal edən sahibkarlıq subyektlərinin fəaliyyəti stimullaşdırılır, onların xarici bazarlara çıxış imkanları asanlaşdırılır. Muxtar respublikada kənd təsərrüfatı və emal məhsullarının ixrac potensialının artırılmasına xüsusi diqqət yetirilir. Tələbatdan artıq məhsulun ixracı üçün məqsədyönlü işlər görülür. Bununla yanaşı, əhalinin alıcılıq qabiliyyəti qorunur.

Daxili bazarda yerli istehsalın xüsusi çəkisinin artırılması ilə yanaşı, azad rəqabət mühitinin yaradılması və inhisarçılığın qarşısının alınması məsələlərinə də diqqət artırılıb. İdxal olunan məhsulların keyfiyyətinə nəzarət gücləndirilib, geni dəyişdirilmiş məhsulların muxtar respublikaya gətirilməsinin qarşısı alınıb. Muxtar respublika iqtisadiyyatında bankların aparıcı rolu təmin edilib. İqtisadi cəhətdən sərfəli layihələrin icrasına dövlət maliyyə dəstəyi, yaxud sahibkarların şəxsi vəsaitlərindən əlavə bank kreditlərindən istifadə imkanları da artırılıb və bunlar daha çox real sektorun inkişafına yönəldilib.

Bu gün muxtar respublikada sahibkarlar və iş adamları üçün əlverişli biznes mühitinin yaradılması məqsədilə mütəmadi olaraq vergi sistemində mütərəqqi islahatlar aparılır, məhsul istehsalçıları, xüsusilə aqrar sektorda çalışanlar üçün vergi güzəştləri tətbiq olunur. Vergi Məcəlləsində cari il yanvar ayının 1-dən qüvvəyə minən dəyişikliklər vergi yükünün əhəmiyyətli dərəcədə aşağı salınmasına, sahibkarlıq subyektlərinin sərəncamında daha çox sərbəst vəsaitin qalmasına xidmət edir.

Qeyri-neft ixracatçılarının respublika müşavirəsində dövlətimizin başçısı ərzaq təhlükəsizliyinin vacibliyindən də danışaraq deyib: ***"Eyni zamanda, biz dövlətin dəstəyi ilə yeni bazarlara çıxış əldə etməliyik. Biz bunu edirik və edəcəyik, ixracyönümlü məhsulların həcmini artırmalıyıq. Ərzaq təhlükəsizliyi də bu iki amillə bilavasitə bağlı olan məsələdir. Biz buna da yaxınlaşırıq ki, ərzaq təhlükəsizliyimizi tam şəkildə təmin edək".***

Aydın məsələdir ki, ərzaq təhlükəsizliyinin təmin olunmasında kənd təsərrüfatının rolu əvəzsizdir. Bu sektorun inkişafı üçün dövlət tərəfindən bir sıra stimullaşdırıcı tədbirlər həyata keçirilir. Aqrar sahədə məhsul istehsalçılarının 2019-cu ilədək torpaq vergisi istisna olmaqla digər vergilərdən azad edilməsi, fermerlərə satılan gübrəyə, yanacaq və motor yağlarına görə verilən subsidiyaların həcminin artırılması, "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə gətirilən texnikaya yeni güzəştlərin tətbiqi və digər tədbirlər aqrar sahənin davamlı inkişafına hesablanıb. Bu gün reallıq ondan ibarətdir ki, muxtar respublikada əksər kənd təsərrüfatı və ərzaq məhsullarına olan tələbatın daxili imkanlar hesabına ödənilməsi təmin edilib, ilk növbədə, əkinəyararlı torpaq sahələrindən istifadəyə diqqət artırılıb.

Naxçıvanda bitkiçilik məhsullarının rayonlar üzrə yerli şəraitə uyğun əkilməsi, növbəli əkin sisteminin tətbiqi və torpaqların münbitliyinin artırılması ilə əlaqədar tədbirlər davam etdirilir. Yeni texnologiyaların, mütərəqqi əkin və suvarma metodlarının tətbiqinə diqqət artırılıb, əkin üçün keyfiyyətli, məhsuldar toxum sortlarından istifadə olunur. Əkilməyən boş torpaq sahələrinin əkin dövriyyəsinə cəlb olunması təmin edilir.

Xatırladaq ki, aprelin 4-də "Naxçıvan Taxıl Məmulatları Sənaye Kompleksi" Açıq Səhmdar Cəmiyyətinin toxumçuluq təsərrüfatına yeni kənd təsərrüfatı texnikaları və toxumçuluq laboratoriyası avadanlıqları təqdim olunub. Toxumçuluq təsərrüfatına verilən 5 kombayn, 5 traktor, hər birinin tutumu 10 ton olan 4 yük maşını, 5 toxumsəpən, 5 filtr təmizləyici, avtobus, hidravlik ekskavator, yanacaq tankeri, toxumörtən, diskli kotan və dırmıqlar, 5 gübrəsəpən, 5 toxumtəmizləyən, 2 elevator, 80 tonluq elektron tərəzi, eləcə də digər maşın və avadanlıqlar yüksək iş imkanlarına malikdir. Yeni alınan elektro-termostatik inkubator, isitmə və qurutma sobası, mikroskop və digər avadanlıqlar hesabına toxumçuluq laboratoriyasında yüksək məhsuldarlığa malik, xəstəliyə, ziyanvericilərə və yerli iqlim şəraitinə dözümlü toxum sortları yetişdiriləcək, toxumların genofonduna və seleksiyasına nəzarət olunacaq. Bütün bunlar isə muxtar respublikada kənd təsərrüfatının inkişafına əsaslı töhfələr verəcək.

**✍ Rauf KƏNGƏRLİ**

***"Azərbaycanın incisi" adlandırılan Ordubad haqqında indiyədək çox deyilib, çox yazılıb. Zəngəzur dağlarının ətəyində yerləşən bu qədim yurd təkcə Qafqazın deyil, bütövlükdə, Şərqin və Avrasiyanın köksündə özünə əbədi yuva qurmuş füsunkar Azərbaycan rayonudur. Son illər muxtar respublikada həyata keçirilən genişmiqyaslı tikinti-quruculuq tədbirləri Ordubadın da ucqar dağ və sərhəd kəndlərini müasir yaşayış məntəqələrinə çevirib.***

## Üstüpü müasir yaşayış məntəqəsinə çevrilir



Bağlar diyarında aparılan quruculuq tədbirlərinin miqyası hər il daha da artır. Hərtərəfli dövlət qayğısı ilə əhatə olunan rayonda bu gün elə bir yaşayış məntəqəsi tapmaq olmaz ki, orada quruculuq işləri görülməsin. Ucqar dağ kəndləri olan Xurs, Nürgüt, Nəsirvaz, Bist, Gilançay, Baş Dizə, Biləv, Behrud, Parağa, Çənnəb, Gənzə, Kotam və digər yaşayış məntəqələrində son illər həyata keçirilən quruculuq tədbirləri nəticəsində müasir binalar inşa olunub, əhalinin yaşayış şəraiti yaxşılaşdırılıb. Onu da qeyd edək ki, rayonun relyefi mürəkkəb olduğundan ucqar dağ kəndlərində quruculuq işləri aparılarkən bir sıra çətinliklərin öhdəsindən gəlmək zərurəti yaransa da, görülən qabaqlayıcı tədbirlər bu məsələlərin həllinə imkan verir.

Bu ilin əvvəlində Ordubad rayonunun yeniləşməyə ehtiyacı olan daha bir ucqar dağ kəndində quruculuq işlərinə başlanılıb. Həmin yaşayış məntəqəsi 1402 sakinin yaşadığı Üstüpü kəndidir. Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Ordubad Rayon İdarəsinin inşaatçıları hazırda kənddə zirzəmisi ilə birlikdə 4 mərtəbədən ibarət olan, 340 şagird yerlik məktəb binasının və 3 mərtəbəli kənd mərkəzinin tikintisini aparırlar. Yaxın vaxtlarda xidmət mərkəzi də inşa ediləcək. Tikinti idarəsinin rəisi Əkrəm Salmanov bizimlə söhbətində bildirdi ki, 3 mərtəbəli kənd mərkəzinin birinci mərtəbəsində həkim ambulatoriyası, poçt və ATS, ikinci mərtəbədə Yeni Azərbaycan Partiyasının yerli təşkilatı, icra nümayəndəliyi, bələdiyyə və klub üçün otaqlar nəzərdə tutulub. İnşaatçılar mart ayının 15-dən burada işə başlayıblar. Artıq binaların özülü möhkəmləndirilib. Əkrəm Salmanov onu da bildirdi ki, həyata keçirilən inşaat işləri ilə yanaşı, Düylün kəndindən Üstüpü kəndinədək olan avtomobil yolu genişləndiriləcək asfaltlanacaq, rabitə, elektrik, qaz xətlərində isə təmir-bərpa işləri yerinə yetiriləcək. Kənddaxili yollar da asfaltlanacaq, səliqə-sahman yaradılacaq. Nəzərdə tutulan binaların tikintisi başa çatdıqdan sonra onlar ən müasir avadanlıqlarla və texniki vasitələrlə təchiz ediləcək.

Rayon mərkəzindən 36 kilometr şimal-qərbdə yerləşən bu kənd özünün münbit torpaqları və gözəl iqlim şəraitinə malik olması ilə də seçilir. Kənd zəhmətkeşlərinin bazara çıxardığı kartof, kələm, lobya, min bir dərdin dərmanı olan bal dərhal özünə alıcı tapır. Çünki Üstüpüdə tədarük olunan kənd təsərrüfatı məhsulları dad-tamı ilə yanaşı, həm də ekoloji təmiz olması ilə fərqlənir.

Üstüpü kənd icra nümayəndəsi əvəzi Bilal Cəfərov bizimlə söhbətində bildirdi ki, kənd sakinlərinin əsas məşğuliyyəti əkinçilik, heyvandarlıqdır. Bu gün yaşayış məntəqəsində aparılan quruculuq işləri təsərrüfatçıları da çox sevindirir. Çünki dövlətimizin qayğısı nəticəsində aparılan quruculuq işlərindən sonra onların yaşayış şəraiti daha yaxşılaşacaq, görülən işlər Üstüpünü müasir Azərbaycan kəndinə çevirəcəkdir. Belə olan halda insanların torpağa bağlılığı daha da artacaq, onlar təsərrüfat işlərini genişləndirəcəklər. Torpaq mülkiyyətçilərindən Azər Abdullayev, Salman Fərzəliyev, İntiqam Bayramov, Ziyad Kərimov, Səfər Orucov və Hüseyn Kərimov da bu fikirdədirlər.

Kənd sakini Əkbər Kərimovla söhbətimizdə dedi ki, bu gün Üstüpüdə görülən abadlıq-quruculuq işləri hər kəsə sevinc bəxş edir. O qeyd etdi ki, təsərrüfat işlərini ailə üzvlərimlə birlikdə görürəm. İstehsal etdiyimiz məhsulların alıcıları da çoxdur. Yollarımızın abadlaşdırılması isə bura qonaq gələnlərin, dolayısı ilə alıcıların sayının artmasına səbəb olacaq.

*Bu gün Üstüpü kəndində zəhmətsevər insanların həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına xidmət etmək məqsədilə aparılan quruculuq işləri kənddə söhbət etdiyimiz digər sakinlər tərəfindən də minnətdarlıq hissi ilə qeyd olundu. Onlar Üstüpüdə yaradılacaq müasir infrastrukturun kənd turizminin inkişafında da əsaslı rol oynayacağına əmindirlər.*

**Abbas SEYİD**

## Qaz təsərrüfatında işlər uğurla aparılır

***Muxtar respublikanın enerji təhlükəsizliyində yaşayış məntəqələrinin və istehsalat sahələrinin təbii qazla təminatı xüsusi yer tutur. Bu səbəbdən də "Naxçıvanqaz" İstehsalat Birliyi təbii qaz təchizatının etibarlılığının və səmərəliliyinin artırılmasını diqqətdə saxlayır, istehlakçılar fasiləsiz və təhlükəsiz təbii qazla təmin edilir.***

2017-ci ilin birinci rübündə muxtar respublikada 123 yeni mənzil və müxtəlif təyinatlı obyektlər qazlaşdırılmışdır. Bu zaman 3885 paqonometr uzunluğunda dəmir borulardan istifadə olunmuşdur. Təbii qaz istehlakçılarının fasiləsiz və təhlükəsiz qazla təchiz olunması məqsədilə korroziyaya uğrayan qaz kəmərləri yeniləri ilə dəyişdirilmiş, 4559 qaz sızması aşkarlanaraq aradan qaldırılmış, təbii qazdan təhlükəsiz istifadə qaydaları haqqında maarifləndirmə və izahat işləri aparılmışdır. Bu dövrdə Naxçıvan şəhərində 1390 smartkarttipli qaz sayğacı quraşdırılmışdır.

Şəhər və rayon qaz istismar idarələrinin işçiləri Naxçıvan Regional Peşə Tədris Mərkəzində Qaz avadanlıqlarının istismarı və təmiri üzrə çilingər peşəsi ixtisasartırma kursuna cəlb olunmuşlar.

***"Naxçıvanqaz" İstehsalat Birliyinin mətbuat xidməti***

# "Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar atlası"nın təqdimatı olub





***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 17 mart tarixli Sərəncamına əsasən "Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar atlası" nəşr olunub. Aprelin 26-da atlasın təqdimatı keçirilib.***

Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavini, "Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar atlası"nın nəşri üzrə redaksiya heyətinin sədri Asəf Məmmədov tədbiri açaraq deyib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar atlası"nın nəşri haqqında imzaladığı 2016-cı il 17 mart tarixli Sərəncamında qarşıya qoyulan vəzifələrin təmin edilməsi üçün redaksiya heyətinin 2016-cı il noyabrın 29-da keçirilən ilk iclasında müvafiq işçi qrupu yaradılmış və işin icrasına başlanmışdır. Aid dövlət orqanlarının əlaqəli şəkildə fəaliyyətinin nəticəsidir ki, atlas yüksək səviyyədə hazırlanaraq nəşr olunmuşdur. 6 bölmədən ibarət olan atlasda təbii resurslardan səmərəli istifadə, əhalinin, yaşayış məntəqələrinin, sənaye və kənd təsərrüfatı müəssisələrinin, qaz kəmərlərinin, kommunikasiya xətlərinin, digər infrastruktur obyektlərinin mühafizəsi, təbii fəlakətlərin, texnogen qəzaların qarşısının alınması və nəticələrinin aradan qaldırılması üzrə tədbirlərin praktik olaraq planlaşdırılması və həyata keçirilməsi müəyyən edilmişdir. Eyni zamanda atlasda muxtar respublikanın sosial-iqtisadi inkişafı ilə bağlı göstəricilər, infrastruktur obyektləri barədə məlumatlar, müxtəlif miqyaslı inzibati və coğrafi xəritələr verilmişdir.

Asəf Məmmədov "Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar atlası"nın redaksiya heyəti adından atlasın nəşrinə göstərdiyi qayğıya görə muxtar respublika Ali Məclisinin Sədrinə minnətdarlığını bildirmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının rəhbəri Əli Həsənov tədbirdə çıxış edərək demişdir: Bu gün fövqəladə hal riskləri artmış, insanların həyat və fəaliyyətlərinin təhlükəsizliyini təmin etmək zərurəti ön plana çıxmışdır. Bu zərurəti nəzərə alan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov 2016-cı il martın 17-də "Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar atlası"nın nəşri haqqında" Sərəncam imzalamışdır. Sərəncamda qeyd olunur ki, atlasın nəşri təbii resursların səmərəli istifadə, əhalinin, yaşayış məntəqələrinin, sənaye və kənd təsərrüfatı müəssisələrinin, infrastruktur obyektlərinin, o cümlədən qaz kəmərlərinin, kommunikasiya xətlərinin fövqəladə hallardan qorunması, istehsal qüvvələrinin inkişafı məsələlərinin əsaslandırılmış şəkildə həll edilməsi məqsədi daşıyır. Ali Məclis Sədrinin Sərəncamına əsasən hazırlanan "Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar atlası" bu sahədə vahid elmi yanaşmanın təmin olunmasına xidmət edən ilk dəyərli nəşrdir.

Ali Məclis Aparatının rəhbəri bu zəruri nəşr münasibətilə tədbir iştirakçılarını təbrik etmiş, fövqəladə hallar atlasının nəşrinə göstərdiyi hərtərəfli dəstəyə və yüksək dövlət qayğısına görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova tədbir iştirakçıları adından dərin minnətdarlığını bildirmişdir. Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikasında mülki müdafiə, əhalinin və ərazilərin fövqəladə hallardan qorunması, yanğın təhlükəsizliyinin təmin olunması istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi və onun strukturuna daxil olan qurumlar üçün müasir iş və xidmət şəraiti yaradılmış, yeni yanğınsöndürmə avtomobilləri və müxtəlif təyinatlı texniki avadanlıqlar alınmışdır. Nazirliyin mərkəzi aparatı və struktur qurumlarının ixtisaslı kadrlarla komplektləşdirilməsi və peşəkarlığının artırılması sahəsində də tədbirlər görülmüşdür. "Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar atlası"nın nəşri də bu sahədə görülən işlərin məntiqi davamıdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində yüksək poliqrafik keyfiyyətlə nəşr olunan atlas fövqəladə halların qarşısının alınmasına və mülki müdafiə işinin təşkilinə öz töhfəsini verəcəkdir. Atlasda fövqəladə halların başvermə təhlükəsi və onların qarşısının alınması üzrə tədbirlər sistemi şəklində təqdim olunur. Kitabın birinci bölməsində Naxçıvan Muxtar Respublikasının iqtisadi-coğrafi şəraiti və inzibati ərazi bölgüsü ilə bağlı məlumatlar əksini tapmışdır. Kitabın ikinci bölməsi fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması işinin təşkili məsələlərini əhatə edir. Təbii fövqəladə hal mənbələrinin mövcudluğu, yayılma arealı və təhlükəsi, əvvəlki illərdə muxtar respublikada baş vermiş bu tip təbii fəlakətlər, onların vurduğu ziyan haqqında statistik məlumatlar nəşrin üçüncü bölməsində verilmişdir. Oxucu bu bölmədə muxtar respublikada fövqəladə halların şəhər və rayonlar üzrə təhlükəlilik riski, xüsusiyyətləri, təhlükə göstəriciləri və onlara qarşı qabaqlayıcı tədbirlər sistemi ilə tanış ola bilər. Atlasın dördüncü bölməsində aqroiqlim təhlükələri və riskləri araşdırılır. Burada muxtar respublika iqtisadiyyatının əsas hissəsini təşkil edən kənd təsərrüfatına mənfi təsir göstərə biləcək əlverişsiz iqlim amilləri şərh olunur. Bu bölmədə muxtar respublikanın şəhər və rayonlarında aqroiqlim ehtiyatlarının paylanması xüsusiyyətləri, həmçinin əkin sahələrinin əlverişsiz aqroiqlim hadisələrinə məruzqalma səviyyəsi təhlil olunmuş, zəruri tövsiyələr verilmişdir. Atlasda ümumi, yerli və xüsusi səciyyə daşıyan fövqəladə hallar da tədqiqata cəlb olunub. Müasir dövrdə sənayeləşmənin sürətlənməsi, əhalinin və istehsal sahələrinin enerji daşıyıcılarına tələbatının artması, istehsalatda daha mürəkkəb texnologiyaların tətbiqi, öz növbəsində, texnogen təhlükələri də artırmışdır. Atlasın texnogen təhlükələr və risklərə həsr olunmuş beşinci bölməsində texnogen fövqəladə hal təhlükəsinin yaranması xüsusiyyətlərindən, texnogen fövqəladə halların təhlükə riskinin daha çox olduğu ərazilərdən, qəzaların qarşısının alınması üçün müəyyənləşdirilmiş profilaktik tədbirlərdən bəhs olunur.

Diqqətə çatdırılmışdır ki, atlasın sonuncu – altıncı bölməsi "Sosial-bioloji təhlükələr və risklər" adlanır. Naxçıvan Muxtar Respublikasının xarici dövlətlərlə, xüsusilə düşmən ölkə ilə sərhəddə yerləşməsi qeyd olunan risklərlə bağlı ciddi tədbirlərin görülməsini taleyüklü məsələlər sırasına çıxarmışdır. Atlasın bu bölməsində təhlükəli xəstəliklərin hər biri haqqında ayrıca məlumatların verilməsi ilə yanaşı, həm də onların yayılma riskləri və profilaktikası sahəsində görüləcək tədbirlər ətraflı izahını tapmışdır. Qeyd olunan xüsusiyyətlər atlası, fövqəladə hallar üzrə ensiklopedik məlumatları özündə əks etdirən nəşr, eləcə də normativ-metodiki vəsait kimi dəyərləndirməyə əsas verir. Şübhə yoxdur ki, müvafiq mərkəzi və yerli icra hakimiyyəti orqanları fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması üzrə tədbirlərin planlaşdırılmasında bu nəşrdən faydalanacaqlar. Muxtar respublika Ali Məclisi Sədrinin fövqəladə halların qarşısının alınması, profilaktik tədbirlərin görülməsi sahəsində rəhbər göstərişləri aid orqanlar tərəfindən icra və fəaliyyət üçün diqqətdə saxlanmalı, Ali Məclis Sədrinin tapşırığına əsasən "Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar atlası" cari ilin may ayı ərzində şəhər və rayon icra hakimiyyətlərində yerli xüsusiyyətlər nəzərə alınaraq müzakirə edilməli, normativ, eləcə də metodiki sənəd kimi yerlərdəki aidiyyəti orqanlara çatdırılmalıdır.

Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar naziri, "Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar atlası" redaksiya heyətinin sədr müavini Şamı Abdullayev çıxış edərək demişdir ki, fövqəladə hallar atlası fövqəladə halların qarşısının alınması və belə hallarda fəaliyyət üzrə idarəetmə orqanlarının və qüvvələrinin fəaliyyətinin planlaşdırılması və təşkili baxımından müstəsna əhəmiyyət kəsb edir. Burada Fövqəladə Hallar Nazirliyinin, mərkəzi və yerli icra hakimiyyəti orqanlarının güc və qüvvələrinin tərkibi, onların eşalonlaşdırılması və fövqəladə hallarda tətbiqi ilə bağlı müvafiq müddəalar öz əksini tapmışdır. Fövqəladə hallar atlası təbii və texnogen fəlakətlərin, sosial-bioloji təhlükələrin qarşısının alınmasında və profilaktik tədbirlərin yerinə yetirilməsində metodiki sənəd kimi istifadə olunacaqdır.

Tədbirdə çıxış edən Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun direktoru, akademik Tariyel Talıbov diqqətə çatdırmışdır ki, müasir dünyada baş verən çoxsaylı kiçik miqyaslı müharibələr, iqlimin qlobal istiləşməsi, içməli su mənbələrinin azalması, aclıq, yeni yaranan xəstəliklər, xüsusilə infeksion xəstəliklərin yayılması, təbii, texnogen fəlakətlər və qəzalar insanın gələcəkdə böyük təhlükələrlə qarşı-qarşıya olduğunu göstərir. Bu baxımdan "Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar atlası" mühüm əhəmiyyətə malikdir. Müəlliflər kollektivi tərəfindən hazırlanan bu əsər həm də muxtar respublikada insan amilinə verilən dəyərin ifadəsidir. Eyni zamanda bu əsərin nəşr olunması Naxçıvan Muxtar Respublikasında proqnozlaşdırılan fövqəladə halların qarşısının alınması və ya nəticələrinin aradan qaldırılması kimi aktual məsələni də daim diqqət mərkəzində saxlamağa imkan verəcəkdir.

Naxçıvan Muxtar Respublikasının ekologiya və təbii sərvətlər naziri Hafiz Yaqubov bildirmişdir ki, "Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar atlası" hazırlanarkən muxtar respublikada son 30 ildə baş vermiş bu tip hadisələr və onların törətdiyi fəsadlar araşdırılmışdır. Ərazilərdə sel, daşqın, subasma hadisələrinin statistikası, bu hadisələrin təkrarlanması intensivliyi öyrənilmiş, sürüşmə hadisələri baş vermiş ərazilər, ehtimal olunan ərazilər və onların başvermə səbəbləri öyrənilmişdir. Su və külək eroziyası, torpaqların şoranlaşması, tozlu fırtınalar və onların fəsadları, güclü yağış, külək, dolu təhlükələrinin statistikası və başvermə intensivliyi təhlil edilmişdir. Bu baxımdan "Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar atlası" fövqəladə halların ekoloji nəticələrini aradan qaldırmaq üzrə işlərə metodiki rəhbərlik etmək, eləcə də bir çox digər tədbirlərin operativ yerinə yetirilməsində istiqamətverici metodik vəsait kimi muxtar respublika ekoloqlarının yol xəritəsi və etibarlı mənbə rolunu oynayacaqdır.

Sonda tədbir iştirakçılarına "Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar atlası" təqdim olunmuşdur.

**"Şərq qapısı"**

# AMEA Naxçıvan Bölməsi ilə 200-dən çox təhsil müəssisəsi arasında interaktiv əlaqə yaradılıb



***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi və AMEA Naxçıvan Bölməsinin birgə təşkilatçılığı ilə muxtar respublikanın ümumtəhsil məktəblərinin şagirdləri üçün növbəti interaktiv dərs keçirilib.***

` "Kitabi-Dədə Qorqud" dastanları və Naxçıvan" mövzusunda keçilən dərsdə bölmənin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev Azərbaycan xalq ədəbiyyatının ən qədim yazılı abidəsi olan "Kitabi-Dədə Qorqud" dastanları barədə şagirdlərə ətraflı məlumat verib. Bildirib ki, daha çox oğuzların tarixini əks etdirən və 12 boydan ibarət olan bu folklor abidəmizdə oğuz türklərinin həyat tərzi, adət-ənənələri, dünyagörüşü, düşmənə qarşı qəhrəmanlıq mübarizəsi, mərdliyi əks olunub. "Kitabi-Dədə Qorqud" dastanı, təxminən, X-XI əsrlərdə yazıya alınıb.

Əbülfəz Quliyev qeyd edib ki, dastanların dünya miqyasında təbliği və Azərbaycanda adının əbədiləşdirilməsi məqsədilə ulu öndər Heydər Əliyev 1997-ci il aprelin 20-də "Kitabi-Dədə Qorqud" dastanlarının 1300 illiyi haqqında" Fərman imzalayıb. Həmin tarixi fərmandan sonra "Kitabi-Dədə Qorqud"un tədqiqi, nəşri və təbliği sahəsində mühüm tədbirlər həyata keçirilib. Naxçıvan şəhərində 1999-cu ildə Dədə Qorqudun abidəsi ucaldılıb, Naxçıvanda və Türkiyənin Van şəhərində beynəlxalq simpoziumlar təşkil olunub.



*Naxçıvan şəhər 2 nömrəli tam orta məktəb*



*Ordubad şəhər M.Füzuli adına tam orta internat məktəbi*

Alim ölkə Prezidenti cənab İlham Əliyevin "Kitabi-Dədə Qorqud"un alman dilinə ilk tərcüməsi və nəşrinin 200 illiyinin qeyd edilməsi haqqında" 2015-ci il 20 fevral tarixli Sərəncamından da bəhs edib.

Şagirdlərin diqqətinə çatdırılıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 25 iyul tarixli Sərəncamı ilə "Kitabi-Dədə Qorqud"un alman dilində ilk tərcüməsi və nəşrinin 200 illiyinin Naxçıvan Muxtar Respublikasında qeyd edilməsi ilə bağlı Tədbirlər Planı təsdiq edilib. Tədbirlər planına uyğun olaraq Naxçıvan şəhərində "Naxçıvanda Dədə Qorqud" beynəlxalq elmi simpoziumu keçirilib, professor Səfərəli Babayevin "Naxçıvanda "Kitabi-Dədə Qorqud" toponimləri" monoqrafiyası yenidən nəşr olunub, "Kitabi-Dədə Qorqud" və Naxçıvan" televiziya filmi hazırlanıb, bu mövzuda açıq dərslərin keçilməsi, kütləvi informasiya vasitələrində verilişlərin və qəzet materiallarının hazırlanması təmin olunub. Həmin sərəncamlardan irəli gələn vəzifələr bu gün də uğurla icra edilir.

Açıq dərsdə "Kitabi-Dədə Qorqud" dastanlarının Naxçıvanla bağlılığından bəhs edilib, dastanda baş verən hadisələrin, bir sıra boylarda adıçəkilən coğrafi adların Naxçıvan ərazisində olduğu bildirilib. Diqqətə çatdırılıb ki, Naxçıvan ərazisində "Kitabi-Dədə Qorqud" dastanında ifadə olunan çoxsaylı yer-yurd adlarının qeydə alınması bu regionun qədim Oğuz yurdu, Azərbaycan torpağı olduğunu təsdiqləyir.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

# Bizə "toy tutan" toylar

***Bu** qış bizi yamanca qısnadı. Yaz gəlib, havalar isinəndən elə bil adamın buzu əriyir. Şəhərə də baxırsan ki, hər yer qaynayır. Adamlar gəzintiyə çıxır, təmiz hava alır, ruhlarını dincə qoyurlar. Arada bir imkan düşəndə elə mən özüm də şeytanın "qıçını" qırıram...*

Dünən səhər Kitab evinin önündə uşaqlıqdan tanıdığım Təmkinlə qarşılaşdıq. Qarşılaşdıq deyəndə ki, elə bil qəfildən göydən paraşütlə düşdü önümə. Elə uşaqlıqdan bir yerdə durmağı yox idi. İndi də kənddə 40-50 qoyun-quzusu, əkin sahəsi var. Təhsili olmasa da, təsərrüfatdan başı çıxır. İş budur ki, onu harda görsəm, həmişə möhkəmcə gülmək istəyirəm. Çünki səbri çatmayıb bu dünyaya 2 ay yarım tez gəlib. Nədənsə, adını "sürət", "dinamika" yox, məhz Təmkin qoyublar. Uşaqlıqda olduğu kimi, indi də başının tükləri biz-bizdi və yeriyəndə deyirsən bəlkə "Ləzginka" oynaya-oynaya hərəkət edir.

Uzun sözün qısası, xoş-beş-onbeşdən sonra dedi ki, bəs məllımm, (müəllim yox ha, məlllımm) mənə bir "dayılıq" elə, banklardan birinə de 2 min manat kredit götürüm.

...Sevindim ki, təsərrüfatını genişləndirir.

Dedim bunu banklara xahiş eləmək lazım deyil ki, Naxçıvanda hamıya kredit verirlər, özü də aşağı faizlə. Gördüm yox, bunun dərdi başqadı.

Nəsə, birdən özü "F-1" qumbarası kimi açıldı:

– Məlllımm, bilmirsən e, özümü salmışam 40 arşın quyunun dibinə, 2 ildi çabalayıram. Özümə şəhər irestoranında toy elədim. O vaxtdan elə bil şaxta vurub məni, donum, qırışığım açılmır.

Əslində, mən hara, irestoran hara? Həyətimdə gül kimi yerimiz var. Ağaclar boy-boy düzülüb. Dədə-baba qaydasında toyumu edəcəkdim. Saman altından su yeridən qonşularımız "qaz" verdilər ki, indi kim kənddə toy eyləyir ki, siz də edəsiz?!

Beləcə, bir də baxdım ki, oturmuşam indiyəcən oturmadığım irestoranın yumşaq bəy kreslosunda. Bir şəkilçəkən də dişlərini ağarda-ağarda ramkaya salınmış şəklimi qoyub qabağıma şit-şit mənə baxır. Məlllımm, öz aramızdı, mən ramka görmüşəm, qarson görmüşəm, kreslo görmüşəm?! Cibimdəki axırıncı 50 manatı da verdim şəkilçəkənə. Toya da 250 nəfər çağırdım, 80-i gəlmədi, heç pul da göndərmədilər. O vaxtdan vəziyyət xarabdı...

Hə dostlar, bu cür məsələlər indi təkcə bizim Təmkin "müəllim"i yox, cəmiyyəti narahat edən məsələyə çevrilib. 10-15 nəfər çit tumanlı nənə lazımdı ki, oturub Əliabad çeşməsinin qənşərində bu məsələyə dilnən ağlasın.

Təsəvvür edin, bu günlərdə mətbuatda oxudum ki, Bakıda bir nəfər toyuna gəlməyən və pul yazdırmayan 50 nəfəri məhkəməyə verib. İşə baxın ki, indi insanın ən sevincli anının – toyunun məsələsi məhkəmələrə qədər uzanır.

Gəlin məsələyə bir az sadə yanaşaq, görək toy nədir... İlk növbədə, iki gəncin birliyi, xoşbəxtliyi, cəmiyyət üçün doğulan və böyüdülən uşaqlar, hüzurlu və mehriban bir ailənin təməli, milli-mədəni məzmun kəsb edən bir anlayış. Toy həm də bir dəyərdir. Daha doğrusu, min illərdir ki, formalaşıb bu günə



gələn milli adət-ənənə, milli dəyər, folklor, xalq yaradıcılığı, xalq deyim və duyumları, mərasim nəğmələri, "Haxışta", "Gülümey", "Tənzərə", qara zurna, saz, nağara, kaman, tar, yallıdır...

Sizə də elə gəlmirmi ki, biz bu dəyərləri yavaş-yavaş, bəlkə də, çox sürətlə dəyərsizləşdiririk?!

### *Stəkanda boğulmaq dənizdə boğulmaqdan daha acınacaqlıdır*

Əvvəllər çox sadə, təmtəraqdan uzaq təşkil olunan toy mərasimlərinə gündə bir yamaq yamanır, toylar mədəni və milli mahiyyətindən çıxıb, kiməsə özünün maddi imkanlarını, cəmiyyətdəki "mövqeyini", "bərkgedən" ətrafının və ya qohumlarının olmasını göstərmək, sözün qısası, "şöhrətpərəstlik"vasitəsinə çevrilib.

20-25 il əvvəl biz turizm deyəndə ağacın altında kabab yemək başa düşürdük. İndi turizmin nə olduğunu birtəhər başa düşmüşük. Amma toy deyəndə yenə də restoranda kabab yemək, o ki var içmək və ya "vurmaq", 100 nəfərin eyni vaxtda qulaqbatıran gurultu ilə "Papito-çikolata" oynamağı gəlir gözümüzün qabağına. Hələ "vurandan" sonra bəlağətli şəkildə "Ana", "Vətən" şeirləri demək də var. Bu yerdə bir yapon atalar sözü yadıma düşür. Boyları balaca olsa da, başları yaxşı işləyən yaponlar deyirlər: "Stəkanda boğulmaq dənizdə boğulmaqdan daha dəhşətlidir".

Qısası, toylarda yamaq yamağın üstünə vurulur. İndi bu yamaqlar barədə qısaca danışaq, görək bunlar nədir?

Bu narahatçılıqların əsası toylardan heç də geri qalmayan nişan mərasimlərindən başlayır. İki məsud gəncə üzük taxmağı böyüdüb edirlər başağrısı. İsrafçılıq, əlavə xərclər, yorğana görə ayaq uzatmamaq prinsipi ailə büdcələrini "laxladır". Nənələrimizin, babalarımızın bir cüt üzüklə çatdıqları vüsala, xoşbəxtliyə indi tabaq-tabaq, ləvin-ləvin qızılzinətlə yaxın düşə bilmirik.

Hələ bir də xınayaxdısı var. Yaşlı insanlar daha yaxşı bilirlər, əvvəllər xınayaxdı mərasimi çox sadə idi. Gəlin və onun yaxın ətrafı barmaqlarına, əlinə təbii otlardan hazırlanan xına qoyardı. Səmimi təbriklər, səslənən folklor nümunələrimiz, milli oyun havaları, qaval rəqsləri, ağbirçək xeyir-duası bu mərasimə ayrıca bir rəng qatardı. İndi isə xınayaxdı təşkil edən xüsusi və hətta vergidən də yayınan işbaz qruplar peyda olub. Həmin işbazlar bu milli adət və mərasimi tamamilə süniləşdiriblər. Bayağı səhnəciklər, şit mahnılar adamları bezdirib. Məbləği artırsınlar deyə, xınayaxdıya o qədər arxa qapıdan gəlmə "adətlər" sırıyıblar ki... Bakını demirəm, hələ Naxçıvanda bu işə az olanda 1500-2000 manat pul xərclənir, təmtərağın baş alıb getdiyi mərasimlər təşkil edilir, xınayaxdı da nişan kimi az qala toydan fərqlənmir, hələ onlara az qala bir təpik də vurur. Axşamın istisində xaşdan, "cızbız"dan o ki var mədəyə doldurub təzyiqi, şəkəri qalxa-qalxa "besetka"da "Can-cana" oynayanların ardı-arası kəsilmir. Bəzən də belələrinə təcili yardım çağırmalı olursan.

Sadəlik gözəllik olsa da, nədənsə, biz hər şeyi getdikcə mürəkkəbləşdirir, ikrah doğuracaq həddə gətiririk. Nədi ki, deyərlər filankəsin toyu "elə-belə" idi, onda üzüyümüzün qaşı düşər...

### *"Gözəl" olan Gözəlağa bir də çiçək çıxarır*

Hələ bir də toyqabağı fotosessiya peyda olub. Fotosessiya deyəndə ki, 200-300 manata şəhərin ayrı-ayrı yerlərində, dostundan yalvar-yapış eliyib birgünlük "arenda" götürdüyü maşının altında, üstündə, yanında, arxasında şəkil çəkdirmək. Hətta başını maşının "lyuk"undan çıxarıb o qədər şəkil çəkdirən cütlüklər var ki... Yazıq "İnstaqram" bu şəkillərin əlindən bir gün mərmi kimi partlayacaq...

Bunu da hamımız görürük: bəy-gəlin maşınlarının – "Toyota-Prado"ların, "ML300"lərin bəzədilməsinə və istifadəsinə 300-500 manat, gözəllik salonlarına və geyimlərə 500-1500 manat arası pul sərf olunur. Pul dərd yarı, deyək ki, kimin imkanı nəyə çatır onu edir, amma iş budur ki, oğlanın, qızın imicini dəyişib elə günə salırlar ki, bəzən onları tanımaq belə olmur. Hə dostlar, bu gözəllik salonları yaxşı iş tapıblar: adamların xeyli pulunu alırlar, sonra da onları gözəlləşdirmək əvəzinə əcaib-qəraib formaya salıb buraxırlar. Necə deyərlər, "gözəl" olan Gözəlağa bir də çiçək çıxarır.

### *Sabah toyuq yemək bu gün yumurta yeməkdən yaxşıdır*

Bu yerdə yadıma ingilis ədibi Tomas Fullerin bir aforizmi düşür. O deyir: "Sabah toyuq yemək bu gün yumurta yeməkdən yaxşıdır". Yəni yumurtanı israf etməyin, çünki o sabah toyuq olacaq. Bu, bir dahinin sözüdür (dahilik xəstəliyinə tutulanın yox ha, dahinin). İndi də gəlin bizə baxın: toylarda israfçılığın "nümunə"sini yaratmışıq. Bəzən cehizi belə şan-şöhrət xatirinə verib ifrata varırıq. Şan-şöhrət üçün verilən cehizlər isə evli cütlərə səadət gətirmir, əksinə, bəzən onların ailələrinə yük, əlavə xərc olduğu üçün evlənənlərin də başına qaxınc olur. Böyük elmi və mənəvi məzmun kəsb edən İslam dini, peyğəmbərimiz belə israfçılığa qarşıdısa, onda bəs biz niyə israf edirik görəsən?..

Müqəddəs kitabımızda deyilir ki, *"Həqiqətən, israfçılar şeytanların qardaşlarıdır. Şeytan isə Rəbbinə qarşı nankordur"(İsra,27). "Şübhəsiz ki, Allah israf edənləri sevmir" (Ənam, 141; Əraf, 31).*

Ata-babalarımız da deyib ki, meşədə yaşasan belə, bir ağacın qədrini bil. Biz isə süfrəyə onlarla cür "inteligent" yeməkləri düzür, milli yeməklərimizi çox vaxt unuduruq. "İnteligent" demişkən, bu yerdə Sabirin "Ürəfa marşı" yada düşür:

*İnteligentik, gəzərik naz ilə,*  
*Ömr edərik nəşeyi-dəmsaz ilə,*  
*Həftədə bir dilbəri tənnaz ilə,*  
*Həmdəm olub işləri sahmanlarıq*  
*Ay bərəkallah, nə gözəl canlarıq!*

Hələ onlarla cür salat, spirtli və spirtsiz içkilər, qiyməti əl yandıran çərəzlər və sair və ilaxır. Uzatmıram, çünki bunları hamınız bilirsiz. Yazıq mədə neyləsin?! İmkanı olsa, dil açıb deyəcək ki, bəsdirin axı yazığam, əl çəkin məndən, qoyun yaşayım da özüm üçün...

Bu hesabla şadlıq evlərində stulun birinin qiyməti 50-100 manatı keçir. İndi yazıq toya çağırılan qonaq nə etsin?! Bir nəfər öz ailəsi ilə toya getsə, məcburi 150-200 manat pul salmalıdır, ya yox? Beləcə, toylarımız ictimai-mədəni mahiyyətindən çıxıb başağrısına, qanqaraçılığına çevrilir. Başağrısı demişkən, bayağı musiqilər, ifa və rəqslər, qulaqbatıran gurultu, əttökən sağlıqlar adamı lap təngə gətirir. "Süleymani"ni "Can-cana", "Naz eləmə"ni "Papito-çikolata", "Heyvagülü"nü "Qarabala" əvəz edir. Həzin, ruha dad verən musiqilərimiz yada da düşmür.



Bəhruz Kəngərli: "Naxçıvan toyu"

Bu yerdə görkəmli rəssamımız Bəhruz Kəngərlinin ruhu qarşısında baş əyməmək və onu xatırlamamaq olmur. Onun ötən əsrin əvvəllərində çəkdiyi "Naxçıvan toyu" tablosunda o qədər millilik, səmimiyyət, milli ifa və musiqi, xəlqiliklə yanaşı, bəşərilik duyulur ki, söz tapıb deyə bilmirsən. Maraqlıdır, görəsən, müasir dövrün rəssamları toylarımıza tablolarda həyat vermək istəsələr, nə göstərəcəklər?! Təbii ki, heç nə. Çünki biz milli geyimi də, milli mətbəxi də, milli adət-ənənələri də toy və şənliklərimizdən didərgin salmışıq. Yumşaq desək, şadlıq evlərinin girovuna çevirmişik. Dəbdəbə və göstəriş istəklərimiz sərhədləri aşıb.

### *Durun gedək, əl çalaq, kirvələr oynasınlar...*

Hələ bir həngamə də sünnət – kiçik toylarda qopur. Mərhum sənətkarımız Səməndər Rzayevin "Bəyin oğurlanması" filmində dediyi kimi: "Dəsgahdı ye vallah"... İndi kiçik toyların böyük toylardan fərqlənən bir adı qalıb. Yenə şit, qulaqbatıran mahnılar, ağzınacan dolu salonlar, bir də çəkiliş kamerasını görəndə tikəni ağzında gizlədən, əslində isə nəyi var "tıxan" adamlar. İndi mənə maraqlıdır ki, görəsən, bu qədər vur-çatlasın sünnət etdirilən o uşaqlara və ya ailəyə nə verir? Kiçik toya 600 nəfər qonaq çağırıb 500 manatlıq da "bəy maşını" bəzədəndə uşaq professor olur, ya şahmat üzrə dünya çempionu?! Vallah, heç birindən olmur. Sadəcə, biz öz ailə səviyyəmizdə edəcəyimiz bir tədbiri qlobal problemə çeviririk. Nədi ki, mən 15 il bundan qabaq Fatmanisənin beşinci qızından olan üçüncü nəvəsinin sünnət toyuna 2 "şirvan" yazdırmışam. Bəs ürəyim partlayar axı, o 2 "şirvan" "ölsə".

Hə, bax, indi çox az adam "şirvan"ından keçib şəxsi nümunə göstərir. Ancaq bu məsələdə də şəxsi nümunə göstərməyə, kiçik toyları yığcam, olduqca sadə və ən əsası ailə səviyyəsində keçirməyə ciddi ehtiyac vardır. (Yeri gəlmişkən, mən özüm bu nümunəni artıq göstərmişəm).

### *Şəxsi nümunəyə və maarifləndirməyə ciddi ehtiyac var*

Günümüzdə toy mərasimlərindəki ifrat dərəcədə olan israfdan hər kəs danışır. Əslində, hər kəs bu israfı görür, qınayır, etiraz edir, lakin bununla yanaşı, heç nəyi dəyişmirlər. Toya gedən hər kəs getdiyi yerdən mütləq narazı gəlir: "Toyda o qədər adam vardı ki, aləm bir-birinə dəymişdi", "Musiqinin səsi başıma düşdü", "Filankəsin toyu daha yaxşı idi, bu toyda yeməyə, – baxmayaraq ki, bütün şadlıq evlərinin menyusunda 30-dan çox yemək çeşidi var, – heç nə tapmadım"... kimi sözləri hər gün eşidirik. Hər kəs narazıdır. Amma hər kəs də, sadəcə, özünü haqlı sayır.

Təbii ki, od varsa, ocaq var, yol varsa, deməli, yolçu da var. Bəs yol nədir? Yol odur ki, Naxçıvanımızda milli dəyərlərin, adət-ənənələrin, xalq yaradıcılığının, tarixi-mədəni irsin qorunub yaşadılmasındakı nümunəni biz hər birimiz – cəmiyyətin bütün üzvləri toylarımızın timsalında yaşadaq, itibbatmağa qoymayaq. Axı toylarımız da iki gəncin səadəti ilə yaşadılan dəyərimizdir.

İlk növbədə, bu toy biznesinin hər kəs üçün zərərli olduğunu, cəmiyyətə fayda vermədiyini başa düşməliyik. İş budur ki, hamı da palaza bürünüb elnən sürünür. İmkanı çatdı-çatmadı... Qısası, əvvəl özümüz bunu anlamalı, sonra ziyalılar, dünyagörmüş insanlar şəxsi nümunə göstərməklə ətrafımızı da öz yolumuzla aparmalıyıq. Necə ki artıq bir neçə ildir ki, Naxçıvanda yas mərasimləri hədsiz sadələşib, islami qaydalara uyğunlaşdırılıb. Aparılan maarifləndirmə işi, dövlət və cəmiyyətin birliyi, yekdil fikri və qərarı, məsələnin mahiyyətinə uyğun addımların atılması bütün əhaliyə böyük fayda gətirib.

Bu işdə də şəxsi nümunə sadə, təmtəraqdan uzaq, milli ənənələrə uyğun toylar etməkdir. Elə dədə-babamızdan gördüyümüz kimi: çox sadə yeməklərdən ibarət məclis və milli musiqi. Belə olan halda israfçılıqdan, ümumiyyətlə, söhbət getməz. Ona görə ki, toya yığılan pul, verilən hədiyyələr də şadlıq evi sahiblərinin cibinə getmir. Yeni ailə quran gənclərin qayğılarına, ilkin ailə həyatlarına sərf olunur. Fikrimcə, biz də cəmiyyəti tədricən bu prosesə hazırlamalı, ciddi maarifləndirmə işi aparmalıyıq. Bununla yanaşı, şadlıq evləri və restoranlarda milli yeməklərdən ibarət sadə menyuların, milli musiqi və rəqslərimizdən ibarət repertuarların tətbiqinə də ehtiyac vardır. Hər halda bu barədə düşünməyin, məncə, vaxtı çatıb.

*P.S. Deyirlər şan-şöhrətə görə evlənən ömürboyu zillət çəkər. Vay bizim Təmkinin halına...*

**Sahil TAHİRLİ**  
***Naxçıvan Televiziyası***

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 343